**“Milli Parkların yüksək dağlıq ərazilərinə turistlərin giriş-çıxışının tənzimlənməsi və onlara bələdçi xidmətinin göstərilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında**

“Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikası Qanununun və Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 14 iyul tarixli 531 nömrəli Fərmanı ilə təsdiq “Azərbaycan Respublikasının milli parklarının ümumi Əsasnaməsi”nin müddəalarına əsasən Milli Parkların turizm və rekreasiya, habelə, turistlərə və başqalarına xidmət göstərilən zonalarında müvafiq xidmət işlərinin operativ və səmərəli təşkili məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 sentyabr tarixli 583 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə”nin 15.6-cı bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. “Milli Parkların yüksək dağlıq ərazilərinə turistlərin giriş-çıxışının tənzimlənməsi və onlara bələdçi xidmətinin göstərilməsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

2. Ümumi Şöbə (T.Mustafayeva) bu əmrin surətinin aidiyyəti üzrə çatdırılmasını təmin etsin.

**Nazir** **H.Bağırov**